SPUTNIK.AZ

04.08.2020

# Su problemitezliklə həllini tapacaq




Millət vəkili Sevinc Hüseynova Sputnik Azərbaycan-a açıqlamasında bildirib ki, su problemlərinin həlli ilə bağlı mühüm tədbirlər keçirilməyə başlayıb. Hazırda Neftçalada vəziyyət gərgindir. Xəzər dənizinin Kürün suyuna qarışması ilə bağlı Neftçala şəhəri və rayonun 38 kəndi içməli sudan məhrum olub. Fövqəladə Hallar Nazirliyi, rayon icra hakimiyyəti və Azərsu ASC-nin dəstəyi ilə orada həm maşınlarla və modul tipli qurğularla su daşınır. Çənlər quraşdırılıb.

Qeyd edək ki, hazırda ölkə ərazisində su qıtlığı müşahidə edilir.

Millət vəkili bildirib ki, bir müddət əvvəl ölkə başçısının rəhbərliyi su məsələsinə həsr olunmuş müşavirə də bunu təsdiqləyir: Belə ki, görülən işlər nəticəsində Bakıda içməli su təminatı 40 faizdən 80 faizə, regionlarda isə 9 faizdən 63 faizə çatdırılıb. Eləcə də, ötən müddət ərzində yeni su anbarlarının tikintisi, artezian quyularının qazılması bu prosesə əhəmiyyətli təsir göstərib".

Onun sözlərinə görə, hazırda isə hədəf insanların içməli suya və suvarma suyuna tələbatını 100 faiz təmin etməkdən ibarətdir.

"Cənab Prezidentin "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalaması da bu məqsədə xidmət edir", - deyə S.Hüseynova vurğulayıb.

https://sputnik.az/news/20200804/424600003/Su-problemi-tezlikl-hellini-tapacaq.html

# Qazaxın su problemi həll edilir



Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı dövlət proqramına uyğun olaraq Qazax şəhərinin içməli su və kanalizasiya sistemləri yenidən qurulur.

Bu barədə XəzərXəbər-ə "Azərsu" ASC-dən bildirilib.

Məlumatda deyilir ki, Qazax şəhərində 1970-ci illərdə yaradılmış su təchizatı sistemləri istismara yararsız vəziyyətə düşüb. Ötən dövrdə əhali artımı və məskunlaşmanın genişlənməsi səbəbindən infrastruktur mövcud və perspektiv tələbatı qarşılamaq iqtidarında deyil. Bütün bunlar nəzərə alınaraq 2019-cu ildə Azərbaycan Hökuməti və İslam İnkişaf Bankının birgə maliyyələşdirdiyi layihə çərçivəsində Qazax şəhərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulmasına başlanıb.

Layihə Qazax şəhərində 26 min nəfərin su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşmasına hesablanıb. Layihə çərçivəsində gələcəkdə Qazax rayonunun Ağköynək, Qarapapaq, Hüseynbəyli və Ağstafa rayonunun Dağ Kəsəmən kəndlərinə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə layihədən 45 min sakin faydalanacaq.

Qazax şəhərini və ətraf kəndləri dayanıqlı içməli su ilə təmin etmək üçün Ağstafa rayonu ərazisində qazılması nəzərdə tutulan 12 subartezian quyusunun 7-si qazılıb. Su mənbəyindən Qazax şəhərinə 9 km magistral su kəmərinin 4 km-lik hissəsi çəkilib. Şəhəri dayanıqlı içməli su ilə təmin etmək üçün tutumu 10 min kubmetr olan su anbarının tikintisi üzrə işlərin 60 faizdən çoxu yerinə yetirilib. Qazax şəhərində inşası nəzərdə tutulan 106 km paylayıcı su şəbəkəsinin 80 km-lik hissəsi tikilib. Ümumilikdə yeni şəbəkədən 5870 ünvana birləşmə verilərək sayğaclar quraşdırılacaq. Bununla paralel olaraq şəhərin kanalizasiya infrastrukturu da yenidən qurulur. Şəhər ərazisində inşası nəzərdə tutulan 82 km kanalizasiya şəbəkəsinin, 4,4 km kanalizasiya kollektorunun tikintisi üzrə işlərin 70 faizi icra olunub.

İçməli su və kanalizasiya şəbəkələrinin tikintisinin 2020-ci ilin sonunda başa çatdırılması planlaşdırılır. Şəhərdə yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan tullantı sutəmizləyici qurğunun tikintisi davam etdirilir.

İşçilərin əmək şəraitinin yaxşılaşdırılması və istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Qazax Sukanal Sahəsi üçün müasir tipli inzibati binanın tikintisi yekunlaşıb və hazırda binada son tamamlama işləri aparılır.

© xezerxeber.az

Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı dövlət proqramına uyğun olaraq Qazax şəhərinin içməli su və kanalizasiya sistemləri yenidən qurulur. Bu barədə XəzərXəbər-ə "Azərsu" ASC-dən bildirilib. Məlumatda deyilir ki, Qazax şəhərində 1970-ci illərdə yaradılmış su təchizatı sistemləri istismara yararsız vəziyyətə düşüb. Ötən dövrdə əhali artımı və məskunlaşmanın genişlənməsi səbəbindən infrastruktur mövcud və perspektiv tələbatı qarşılamaq iqtidarında deyil. Bütün bunlar nəzərə alınaraq 2019-cu ildə Azərbaycan Hökuməti və İslam İnkişaf Bankının birgə maliyyələşdirdiyi layihə çərçivəsində Qazax şəhərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulmasına başlanıb.Layihə Qazax şəhərində 26 min nəfərin su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşmasına hesablanıb. Layihə çərçivəsində gələcəkdə Qazax rayonunun Ağköynək, Qarapapaq, Hüseynbəyli və Ağstafa rayonunun Dağ Kəsəmən kəndlərinə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə layihədən 45 min sakin faydalanacaq.Qazax şəhərini və ətraf kəndləri dayanıqlı içməli su ilə təmin etmək üçün Ağstafa rayonu ərazisində qazılması nəzərdə tutulan 12 subartezian quyusunun 7-si qazılıb. Su mənbəyindən Qazax şəhərinə 9 km magistral su kəmərinin 4 km-lik hissəsi çəkilib. Şəhəri dayanıqlı içməli su ilə təmin etmək üçün tutumu 10 min kubmetr olan su anbarının tikintisi üzrə işlərin 60 faizdən çoxu yerinə yetirilib. Qazax şəhərində inşası nəzərdə tutulan 106 km paylayıcı su şəbəkəsinin 80 km-lik hissəsi tikilib. Ümumilikdə yeni şəbəkədən 5870 ünvana birləşmə verilərək sayğaclar quraşdırılacaq. Bununla paralel olaraq şəhərin kanalizasiya infrastrukturu da yenidən qurulur. Şəhər ərazisində inşası nəzərdə tutulan 82 km kanalizasiya şəbəkəsinin, 4,4 km kanalizasiya kollektorunun tikintisi üzrə işlərin 70 faizi icra olunub.İçməli su və kanalizasiya şəbəkələrinin tikintisinin 2020-ci ilin sonunda başa çatdırılması planlaşdırılır. Şəhərdə yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan tullantı sutəmizləyici qurğunun tikintisi davam etdirilir.İşçilərin əmək şəraitinin yaxşılaşdırılması və istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Qazax Sukanal Sahəsi üçün müasir tipli inzibati binanın tikintisi yekunlaşıb və hazırda binada son tamamlama işləri aparılır.

http://www.xezerxeber.az/C%C9%99miyy%C9%99t/301557.html

# Nazir müavini: “Su problemi ilə əlaqədar “Azərsu” və digər qurumlara vəsait ayrılması nəzərdətutulur”

“Su problemi ilə bağlı müvafiq komissiya yaradılıb. Baş nazirin müavini həmin komissiyaya rəhbərlik edir. İlkin təkliflər artıq verilib”.APA-nın məlumatına görə, bunu Milli Məclisin bu gün keçirilən iclasında “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsi zamanı Maliyyə nazirinin müavini Azər Bayramov deyib.Nazir müavini bildirib ki, su problemi ilə əlaqədar “Azərsu” və digər qurumlara vəsait ayrılması nəzərdə tutulur: “Qeyd etmək lazımdır ki, bu qurumlara 2019-cu ildə ayrılan vəsaitlərin də bir hissəsindən hələ istifadə olunmayıb. Onlar da istifadə ediləcək”.


SON XƏBƏRLƏR SİYASƏT TƏHLİL XƏBƏR İQTİSADİYYAT DÜNYA

XƏBƏRİMİZ VAR

APA BLOQ Ceyhun Osmanlı Politoloq Elman Nəsirov Politoloq

AZ | RU | EN KORONAVİRUS

apa.az > Sosial

Nazir müavini: “Su problemi ilə əlaqədar “Azərsu” və digər qurumlara vəsait ayrılması nəzərdə tutulur”

12:25 06 Avqust 2020

“Su problemi ilə bağlı müvafiq komissiya yaradılıb. Baş nazirin müavini həmin komissiyaya rəhbərlik edir. İlkin təkliflər artıq verilib”.

APA-nın məlumatına görə, bunu Milli Məclisin bu gün keçirilən iclasında “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsi zamanı Maliyyə nazirinin müavini Azər Bayramov deyib.

Nazir müavini bildirib ki, su problemi ilə əlaqədar “Azərsu” və digər qurumlara vəsait ayrılması nəzərdə tutulur: “Qeyd etmək lazımdır ki, bu qurumlara 2019-cu ildə ayrılan vəsaitlərin də bir hissəsindən hələ istifadə olunmayıb. Onlar da istifadə ediləcək”.

Firuzə Vahid

Digər xəbərlər

# Dəniz suyunun duzsuzlaşdırılması su problemini həll edə bilər




Dünyada baş verən ekoloji proseslər, iqlim dəyişiklikləri içməli su qıtlığının yaranmasına gətirib çıxarıb.
Trend.az məlumatına görə, dünyanın bir neçə ölkəsində içməli su qıtlığı probleminin qarşısının alınması üçün görülən işlərdən biri də dəniz suyunun duzsuzlaşdırılmasıdır.
Bu təcrübədən Azərbaycanda da istifadə olunur. Belə ki, Salyan rayonunda yerləşən Xəzər Dəniz Suyunun Duzsuzlaşdırılması Kompleksində duzlu su şirin su halına gətirilir.
Zavod gələcəkdə yarana biləcək su qıtlığı probleminin effektiv həlli məqsədi ilə 2012-ci ildə Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunu içməli su səviyyəsinə qədər təmizləməyə imkan verən, tərs osmos membranları ilə təchiz olunmuş və yüksək texnologiya əsasında inşa olunub.
Zavodun tikilməsi ideyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məxsusdur və Yer kürəsində təmiz suya olan tələbatın get-gedə artması fonunda regionda ən az şirin su ehtiyatına malik ol Azərbaycanda alternativ mənbələrin üzə çıxarılması, onlardan istifadənin təşkilində təcrübə əldə etmək məqsədilə pilot layihə kimi həyata keçirilmişdir.
İlk mərhələdə ehtiyaclar nəzərə alınaraq zavodda dəniz suyundan sutkada 1000 kubmetr şirin su istehsal etmək üçün avadanlıq quraşdırılmışdır.
2016-cı ildə zavodun gücü əlavə tikinti-quraşdırma işləri aparmadan dəfə artırılaraq sutkada 2000 kubmetrə çatdırılmışdır.
Dəniz Suyunun Duzsuzlaşdırılması Zavodunun direktoru Qabil Teymurov bildirib ki, dəniz suyu 12 km məsafədən götürülür və ilkin çökməyə məruz qalmış su sonradan nasoslar vasitəsilə anbarlara vurulur.
Dənizdən suyun götürülməsi üçün uzunluğu 200, eni 8 metr, dəniz səviyyəsindən hündürlüyü 5 metr olan damba inşa edilmiş, həcmləri 500 m3 və 200 m3 olan xüsusi örtüklə izolyasiya olunmuş 3 ədəd metal su çəni quraşdırılmış, həcmi 500 m3 olan yeraltı dəmir-beton s anbarı, həcmi 150 m3, 500 m3, 2000 m3, 20000 m3 və 25000 m3 olan geotekstil membran örtüyü ilə izolyasiya olunmuş 6 ədəd su anbarı, avadanlıqların quraşdırıldığı 750 m2 bina, 120 m2 ofis binası və s. inşa edilmişdir.
Zavod rəhbəri qeyd edib ki, bu sudan həm içmək, həm də sahələrin suvarılması məqsədilə çəkinmədən istifadə etmək mümkündür.

https://az.trend.az/business/3280648.html

# “Su ehtiyatlarından səmərəli istifadə” mövzusunda vebinarların ilkin mərhələsinə yekun vurulub


AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
10.08.2020 17:13
“Su ehtiyatlarından səmərəli istifadə” mövzusunda vebinarların ilkin mərhələsinə yekun vurulub

2020-ci ilin iyul-avqust aylarında Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP), Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişafı Mərkəzinin (RUGİM) birgə təşkilatçılığı ilə “Su ehtiyatlarından səmərəli istifadə” mövzusunda məktəblilər və müəllimlər üçün onlayn platformada maarifləndirmə proqramı həyata keçirilib.18 iyul tarixində start verilən proqram çərçivəsində avqustun 8-də keçirilən ilkin mərhələnin yekununda BMTİP-nin Rezident nümayəndəsinin müavini Çaru Bist, Təhsil nazirinin müavini Firudin Qurbanov, Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Vüqar Kərimov mövzu ilə bağlı çıxış ediblər.Vebinarda hər iki nazirliyin nümayəndəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin su problemlərinin aradan qaldırılması, su ehtiyatlarından səmərəli istifadəni təmin etmək üçün əlavə tədbirlər haqqında müvafiq sərəncamını və bu sahədə müəyyənləşdirilmiş 2020-2022-ci illər üçün Tədbirlər Planı haqda məlumatları diqqətə çatdırıblar.Tədbirdə açılış nitqi ilə çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov həyatın özünün və insanın bütün təsərrüfat fəaliyyətinin su ehtiyatlarının istifadəsi ilə qırılmaz əlaqədə olduğunu, bütün canlı orqanizmlərin yaşaması üçün suyun əvəzedilməz şərt olaraq böyük rol oynadığını qeyd edib. Suyun səmərəli istifadə ilə davamlı inkişafa dəstək verərək eyni zamanda ciddi qlobal risklərdən qoruyan əsas faktor olduğunu bildirən Firudin Qurbanov çıxışında “Su ehtiyatlarından səmərəli istifadə” mövzusunda məktəblilər və müəllimlər üçün keçirilən vebinarların dövlət başçısının son sərəncamlarına əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyinin BMTİP ilə keçirilməsinin vacibliyini qeyd edib. Nazir müavini çıxışının sonunda Təhsil Nazirliyi adından göstərilən dəstəyə görə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, BMTİP-na təşəkkürünü bildirib və bütün iştirakçılara gələcək fəaliyyətlərində uğurlar diləyərək, bundan sonra da ölkəmizdə ətraf mühitin, su ehtiyatlarının qorunmasında gənc nəslin daha aktiv iştirak etməyini tövsiyə edib.Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Vüqar Kərimov dünyada şirin su ehtiyatlarının azaldığını və bunun başlıca səbəbinin qlobal iqlim dəyişikliyi olduğunu deyib. Vüqar Kərimov qeyd edib ki, Azərbaycan azsulu ölkələr sırasındadır və su çatışmazlığı problemi ölkəmizdən də yan keçmir. Respublikamızın su ehtiyatlarının 70 faizi ölkəmizdən kənarda formalaşır və Azərbaycana Kür, Araz, Samur kimi çaylarla tranzit olunur. Son 8 ildə müşahidə olunan davamlı quraqlıq su ehtiyatlarımızın azalmasına səbəb olub. Buna görə də su ehtiyatlarından səmərəli istifadə, onun ədalətli bölgüsünün, uçotunun aparılması istifadəsinə nəzarətin gücləndirilməsi zəruridir. Nazirliyin rəsmisi ölkəmizdə suya qənaət edilməsi istiqamətində görülən işlərdən bəhs edib, gələcəkdə ciddi su qıtlığı problemi ilə üzləşməmək üçün hər kəsi sudan səmərəli və qənaətlə istifadəyə çağırıb.BMT-nin İnkişaf Proqramının Rezident nümayəndəsinin müavini Çaru Bist tədbirdə çıxış edərək bütün dünyada 844 milyon insanın təmiz su çatışmazlığından əziyyət çəkdiyini, 600 milyon uşağın isə təmiz suya çıxışının çox zəif olduğu ərazidə yaşadığını bildirib. O, beynəlxalq təcrübəyə əsasən bəzi ölkələrin su qıtlığı probleminə müxtəlif sektorlar üzrə su resurslarının səmərəli idarə olunması yolu ilə nail olunduğuna diqqət çəkib. Çaru Bist həmçinin bu gün gənclərin dünyada müsbət dəyişikliklərin əsas hərəkətverici qüvvəsi olduğunu vurğulayıb. Çıxışında gənclərin malumatlılığının artırılmasında, maarifləndirmə proqramlarının həyata keçirilməsində, təbiətin qorunması, eləcə də bərpa olunan enerjinin təbliğ edilməsi və ekoloji cəhətdən təmiz təcrübənin mənimsənilməsi üçün yerli, milli və qlobal səviyyədə fəal iştirak etdiklərini qeyd edib.Onlayn tədbirlərdə “Su probleminin yaranma səbəbləri”, “İqlim dəyişmələrinin su ehtiyatlarına təsiri”, “Maarifləndirmə: amalımız - sudan qənaətlə istifadədir!”, “Su problemi və gender”, “Sudan səmərəli istifadə, həyata keçirilən layihələr” və digər mövzularda Ekologiya və Təbii Sərvətlər Nazirliyindən Umayra Tağıyeva, Faiq Mütəllimov, Rafiq Verdiyev, İradə İbrahimova, su problemləri üzrə müstəqil ekspert Rövşən Abbasov, KİV nümayəndəsi Orxan Kərimov, Gender eksperti Xalisə Şahverdiyeva, BMT İP baş proqram müşaviri Çingiz Məmmədov, BMT-nin İqlim dəyişmələri üzrə konvensiyasına dördüncü Milli Məlumatın hazırlanmasına texniki yardım” layihə assistenti Elanə Əlizadə və Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultan-zadə iştirak ediblər.

Qeyd olunub ki, proqramın əsas məqsədi dünyada, o cümlədən Azərbaycanda da mövcud olan su problemləri, insan həyatı və sağlamlığı, öncəliklə də uşaqların həyatı və sağlamlığının mühafizəsi üçün ən əhəmiyyətli məsələlərdən biri olan təmiz su və onun istifadəsi, iqlim dəyişmələrinin su ehtiyatlarına təsiri, sudan istifadə sahəsində yeni qənaətcil texnologiyaların tətbiqi və su itkilərinin qarşısının alınmasında məktəblilərin məlumatlandırılması və maarifləndirilməsi, həmçinin müəllim və metodistlərin bu istiqamətdə biliklərinin artırılmasıdır. Hər şənbə günü iki saat ərzində mütəxəssis hidroloqların, ekoloqların, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aparıcı əməkdaşlarının, RUGİM-in mütəxəssislərinin, jurnalistlərin, ekoloji QHT nümayəndələrinin iştirakı ilə məlumatlandırıcı onlayn vebinarlar təşkil olunub, uşaq və gənc auditoriya və müəllimlər üçün təqdimatlar, interaktiv sorğular hazırlanıb, animasiya filmləri və sosial videoçarxlar nümayiş etdirilib, sual və cavablar üçün vaxt ayrılıb, məktəblər və ev təsərrüfatları üçün pilot layihələr məsələləri müzakirə edilib. Vebinarlar 300 iştirakçıdan ibarət bir qrupda onlayn olaraq keçirilib və sosial şəbəkələrdə canlı yayımlanaraq, hər bir maraqlanan uşaq və böyüklər onlayn yayımlara qoşulmaq, suallarını vermək və ya bir mütəxəssisə qulaq asmaq üçün linki əldə edə biliblər. Proqrama məktəblilərlə yanaşı, respublikanın 50-dən çox rayon mərkəzi də qoşulub.Ekoloji təhsilin Yer kürəsində davamlı inkişafa nail olmaq, ətraf mühitə təsiri azaltmaq üçün vacib amillərdən olduğunu bildirən nazirlik rəsmiləri bu tədbirin uşaq və gənclərin ekoloji tərbiyəsinin formalaşmasına, faydalı təcrübənin öyrənilməsinə töhfə verəcəyini qeyd ediblər.Bu məsələyə böyük maraq və gənc nəsil arasında maarifləndirmə işinin əhəmiyyəti nəzərə alınaraq, layihəni planlaşdırıldığı kimi 4 məlumat sessiyası ilə başa çatdırmamaq, sentyabr ayına qədər vebinarları davam etdirmək və maarifləndirici məlumat işləri üçün gələcək iş planını hazırlamaq qərara alınıb.

https://edu.gov.az/az/page/9/18726

PRIMETIME.AZ

10.08.2020

# Neftçalada içməli su problemi aradan qaldırılır

Prezident İlham Əliyevin ölkədəki su problemi ilə bağlı keçirdiyi geniş videomüşavirədə verdiyi tövsiyə və tapşırıqlara uyğun olaraq əhalinin içməli su təminatının daha da yaxşılaşdırılması üçün müvafiq tədbirlər keçirilir. Avqustun 1-dən etibarən 50-dən artıq ümumi tutumu 500 m3 olan su daşıyan texnika və nəqliyyat vasitəsi Neftçala rayon ərazisini su ilə təmin edir. Rayon ərazisində ümumi tutumu 800 m3 olan plastik su çənləri quraşdırılıb ki, bununla da içməli su həmin çənlərə daşınaraq günaşırı əhalinin istifadəsinə verilir.

Rayon İcra Hakimiyyətindən Primetime.az-a verilən məlumata görə, eyni zamanda sutəmizləyici qurğular da günaşırı olaraq su ilə təmin olunur. Akkuşa çayının nəzarətə götürülməsi nəticəsində suyun səviyyəsində artım müşahidə olunur. Bu da ümumi su təminatının yaxşılaşdırılması baxımından fermerlər üçün əlverişli fürsət yaradıb.

Müşavirədən öncə gündəlik su təminatı 30-35 faiz arasında dəyişirdisə, artıq bu rəqəm iki dəfə artaraq 60-70 faizə çatıb. Eyni zamanda Salyan rayonundan Neftcalaya çəkilən 44 km-lik yeni su xəttində işlər intensiv olaraq davam etdirilir.

Neftçala rayon İcra Hakimiyyəti başçısının yanında su problemi ilə bağlı yaradılmış Operativ Qərargaha gün ərzində yüzlərlə vətəndaşın müraciəti daxil olur və həmin müraciətlər davamlı olaraq cavablandırılır. Ehtiyac olan yerlərə vaxtında su təminatı həyata keçirilir.

Qeyd edilən müşavirədən sonra Prezident İlham Əliyevin verdiyi tapşırıqlara əsasən rayona əlavə olaraq yeni su texnikalarının cəlb olunması, yerlərdə iritutumlu su çənlərinin quraşdırılması, əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə Neftçala rayon İcra Hakimiyyəti başçısının yanında yaradılmış Operativ Qərargah fəaliyyətini gecə saatlarına qədər davam etdirir. Nəticədə rayon ərazisinə ümumilikdə 1000 m3-dən artıq içməli su daşınaraq şəhər mərkəzi, kəndlər və qəsəbələrə əhalinin su təminatı həyata keçirilir.




https://primetime.az/37189-neftcalada-icmeli-su-problemi-aradan-qaldirilir-fotolar

# NOCOMMENT.AZ

10.08.2020

## Sumqayıtda içməli su problemi davam edir – 90-cı illərə qayıdırıq




NOCOMMENT.az xəbər verir ki, Sumqayıt şəhərinin bir hissəsində bu gün günorta saatlarından etibarən içməli su verilişi dayandırılıb.
Azərsu ASC-dən Sumqayıtda su ilə bağlı bir problemin olmadığını bildiriblər: "Ola bilsin ki, hansısa məhəllə daxilində təmir işləri aparılır".
Azərsu ASC-nin Sumqayıt Su-kanal İdarəsinin daxili nömrələri və İdarənin rəisi İlqar Abdullayev ilə əlaqə saxlamaq cəhdlərimiz isə baş tutmadı. Əhali isə bu isti yay günlərində içməli su ilə imtahana çəkilməkdə davam edir.
Qeyd edək ki, Sumqayıt şəhərinin içməli su problem uzun illərdir ki, həll olunmamış qalmaqdadır.
Dövlət büdcəsindən və beynəlxalq kredit təşkilatlardan Sumqayıtın su təsərrüfat infrastrukturunun yenilənməsi və əsaslı təmiri ilə bağlı milyonlarla dövlət zəmanəti ilə alınmış kreditlər ayrılsa da bu problem öz həllini hələ də tapmayıb.

https://nocomment.az/sumqayitda-icmeli-su-problemi-davam-edir-90-ci-illere-qayidiriq/